

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 66 (21.727)

8 aprel 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Ümumrusiya Dövlət Teleradio Şirkətinin teleradio aparıcısı Vladimir Solovyovla görüşüb.

Vladimir Solovyov Bakıya ilk dəfə səfər etdiyini bildirərək paytaxtımızda sürətli inkişaf proseslərinin onda böyük təəssürat doğurduğunu və Bakının çox gözəl şəhər olduğunu vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanda gedən inkişaf prosesləri barədə danışarkən qeyd edib ki, ölkəmiz haqqında reallıqların dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal işlər görülür. Dövlətimizin başçısı, həmçinin Azərbaycanın tarixi və bugünkü reallıqları barədə söhbət açaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırıb. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan ilə Rusiya arasında bütün digər sahələrdə olduğu kimi, humanitar əlaqələr, o cümlədən media sahəsində də uğurlu əməkdaşlıq həyata keçirilir.

Vladimir Solovyov ətraflı və dolğun informasiyaya görə dövlətimizin başçısına minnətdarlığını bildirib, Azərbaycanda gedən proseslərlə yaxından tanış olmağın onun üçün böyük maraq doğurduğunu qeyd edib.

## Naxçıvanda gənc idmançıya yeni mənzil təqdim olunmuşdur



Aprelin 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Xatun" Bədii Gimnastika Klubunun baş məşqçisi, bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarovaya yeni mənzil təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir ki, muxtar respublikada gənclərin asudə vaxtlarının səmərəli təşkili və idmana cəlbi sahəsində həyata keçirilən tədbirlər öz nəticəsini verir. Muxtar respublikada qızların idmana cəlbinə də xüsusi diqqət yetirilmiş, müxtəlif idman federasiyaları üzrə qızlardan ibarət klubların yaradılması ilə bağlı tapşırıqlar verilmişdir. Artıq muxtar respublikada qızlar da müxtəlif idman federasiyalarında təmsil olunurlar. Qadınların və qızların idman obyektlərindən istifadəsi üçün lazımi şərait yaradılmış, özəl fitnes mərkəzləri və müxtəlif idman klubları fəaliyyətə başlamışdır. Son illər yaradılan və səmərəli fəaliyyət göstərən idman klublarından biri də "Xatun" Bədii Gimnastika Klubudur. Qızların kiçik yaşlarından "Xatun" Bədii Gimnastika Klubuna cəlbi və bu idman növü ilə məşğul olmaları onların sağlam böyüməsinə imkan verir. 2017-ci il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq "Xatun" Bədii Gimnastika Klubunun Şərur Olimpiya-İdman Kompleksində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində və Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzində filialları yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Bu gün gənclərin fiziki cəhətdən sağlam böyüməsi qarşıda duran əsas vəzifələrdəndir. Ona görə də muxtar respublikada idmanın inkişafına diqqət artırılır. Qızların idmana cəlbində Humay Qafarovanın da xidmətləri vardır. Humay Qafarovanın uşaq yaşlarından bədii gimnastika sahəsindəki istedadı nəzərə alınaraq Bakı şəhərinə təhsil almağa göndərilmişdir. Təhsilini başa vurduqdan sonra Humay Qafarova muxtar respublikaya qayıdaraq bədii gimnastikanın inkişafı ilə məşğul olur. Bu gün "Xatun" Bədii Gimnastika Klubuna böyük maraq vardır. Bundan sonra da klubun fəaliyyətinin genişləndirilməsi üçün lazımi şərait yaradılacaqdır. Bədii gimnastikanın inkişafı və qızların bu idman növünə cəlbi sahəsindəki səmərəli fəaliyyəti nəzərə alınaraq, eləcə də yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə Humay Qafarovaya Naxçıvan şəhərində yeni mənzil təqdim olunur.

Ali Məclisin Sədri Humay Qafarovaya təşəkkür etmiş, yeni mənzillə təmin olunması münasibətilə təbriklərini çatdırmışdır.

Humay Qafarova yeni mənzillə təmin olunduğuna görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da göstərilən etimadı doğruldaraq qızların bədii gimnastikaya cəlbi və bu idman növünün muxtar respublikada inkişafı sahəsində səmərəli fəaliyyət göstərəcəyinə söz vermişdir.

Sonra Ali Məclisin Sədri mənzilin orderini Humay Qafarovaya təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Hamiliyə verilmiş tələbələr prokurorluq orqanlarının iş prinsipləri ilə tanış olublar



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib.***

Aprelin 7-də universitetin bu ixtisas üzrə 3-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tələbələr əvvəlcə buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev Ali Məclis Sədrinin adıçəkilən sərəncamının və bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Prokuror bildirib ki, bu sərəncam tələbələrin dərs məşğələləri zamanı qazandıqları biliklərin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair tədbirlər planının təsdiq olunduğunu bildirən prokuror diqqətə çatdırıb ki, planda hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması nəzərdə tutulub. Bundan başqa, planda gələcək hüquqşünasların muxtar respublika prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri üçün lazımi şəraitin yaradılması da öz əksini tapıb. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonda suallar cavablandırılıb.

Qeyd edək ki, tələbələr dünən Naxçıvan Şəhər Prokurorluğunda da olublar.

**✍ Səbuhi HƏSƏNOV**

*Culfa rayonunun Dizə kəndində kompleks quruculuq işlərinin həyata keçirilir.*

## Dizə kəndində kompleks quruculuq işlərinə başlanılıb



Burada tikilən tam orta məktəbin yeni binası 216 şagird yerlik və 3 mərtəbədən ibarət olacaq. Binada elektron lövhəli siniflər, kompüter otağı, laboratoriyalar, kitabxana, idman zalı şagirdlərin ixtiyarına veriləcək. Kənd məktəbinin müasir standartlara cavab verməyən köhnə binası isə sökülür. Kənddə sakinlərin rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sakinlər tərəfindən də böyük razılıqla qarşılanır.

Bu il kənddə 2 mərtəbəli kənd mərkəzi də inşa olunacaq. Həmçinin yeni xidmət mərkəzi də tikilərək sakinlərin ixtiyarına veriləcək.

Hazırda inşa olunacaq obyektlərin yerlərindəki köhnə tikililərdə söküntü işləri aparılır, yerlər hazırlanır. Kənddə həmçinin digər abadlıq işləri də aparılacaq, kənd və kənddaxili yollar yenilənərək asfaltlanacaq. Artıq kənddə 6 kilometr yolda texniki işlər aparılaraq yol yatağı genişləndirilib.

**Xəbərlər şöbəsi**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.*



10 aprel İnşaatçılar Günüdür

# Naxçıvanda tikinti-quruculuq işləri uğurla davam etdirilir

İnşaat sektorunun inkişafı, bütövlükdə, ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biri hesab edilir. Əsası 1969-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xətti istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində ölkəmizdə digər sahələrlə yanaşı, tikinti-quruculuq işlərinin də geniş vüsət almasına səbəb olmuşdur. Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı xeyli sürətlənmiş, nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdir. Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə tikinti-quruculuq işlərinin həcmi daha da genişlənmiş, inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi xeyli artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir.

Son illər ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamları ilə qəbul edilən dövlət proqramlarının uğurlu icrası da iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənmişdir. Bu da, nəticə etibarilə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir.

Bu gün Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayonlarda müasir binalar tikilir. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Böyük təcrübə sahibi olan Naxçıvan inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada tarazlı inkişaf təmin olunmuş, investisiya qoyuluşları bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir. Belə ki, 2016-cı ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 104 milyon 188 min manatdan artıq investisiya yönəldilmişdir ki, bunun da 98 milyon 530 min manatı və ya 94,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Aparılan işlər təsərrüfat həyatının bütün sahələrini əhatə edir. Ötən il muxtar respublikada 5460 şagird yerlik 15 məktəb binası, 13 kənd və 14 xidmət mərkəzi daxil olmaqla, 256 müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş, əhalinin şəxsi vəsaiti hesabına 376 min 277 kvadratmetr yaşayış sahəsi tikilmişdir.

Blokadanın yaratdığı ən kəskin problemlərdən biri də enerji resurslarına çıxış imkanlarının məhdud olması idi. Ötən illər ərzində bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmiş, davamlı olaraq yeni elektrik stansiyaları qurulmuşdur ki, bu da, son nəticədə, enerji təhlükəsizliyimizin təmin olunmasına imkan vermişdir. Əgər 22 il bundan əvvəl muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar və tikinti-quruculuq işləri nəticəsində muxtar respublikada elektrik stan-



siyalarının sayı 6-ya çatdırılmış, yeni transformator yarımstansiyaları qurulmuşdur. Hazırda Ordubad rayonunda gücü 36 meqavat olan derivasiya tipli Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biri hesab olunur. Yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, bu gün muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin əsasını təşkil edir. Son illər muxtar respublikanın bütün şəhər və rayon mərkəzlərində müasir yollar çəkilmiş, magistral və yerli əhəmiyyətli yollar yenidən qurulmuşdur. 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistral av-





tomobil yolları, eləcə də ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, Çeşməbasar-Boyəhməd, Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Araz-kənd dairəvi avtomobil yolları, eləcə də kənd yolları yenidən qurularaq istismara verilmişdir. Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur.

Muxtar respublikada əkinçiliyin geniş yayılması və inkişafı meliorasiya-irriqasiya sistemlərinin davamlı olaraq təkmilləşdirilməsini də zəruri edir. Son illər bu istiqamətdə də ardıcıl tədbirlər həyata keçirilmiş, tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarı tikilmiş, Arpaçay Su Anbarı və Uzunoba Su Anbarı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Nəticədə, muxtar respublikada min hektarlarla yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmiş, suvarma tədbirləri yaxşılaşdırılmışdır.

Bu gün Naxçıvanda yeni obyektlərin inşası ilə yanaşı, tarixi abidələrin bərpası da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirdiyi tədbirlər çərçivəsində hər il yeni abidələr bərpa olunaraq tarixi görkəmi özünə qaytarılır. Bu işdə muxtar respublika inşaatçıları fəal iştirak edir, abidələrimiz tarixi görkəmi saxlanılaraq bərpa edilir. Son illər bərpa olunan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Nuhun türbəsi, Əlincəqala tarixi abidəsi, Gülüstan türbəsi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, buzxanalar, imamzadələr və digər onlarla tarixi abidə, hazırda bərpası davam etdirilən Qarabağlar Türbə Kompleksi, Nehrəm imamzadəsi və Yengicə hamamı Naxçıvanın zəngin tarixi-mədəni irsini özündə yaşatmaqla yanaşı, həm də bu torpaqda qədim tikinti mədəniyyətindən, memarlığın inkişafından xəbər verir.

Muxtar respublikanın tikinti sektorunda çalışan işçilərin sağlamlığının qorunması və tikinti işləri zamanı keyfiyyətin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması barədə keçirilən müşavirələrdə bu məsələ ilə bağlı aidiyyəti orqanlara konkret tapşırıqlar verilmişdir. Bu isə o deməkdir ki, muxtar respublikada çalışan hər bir inşaatçının sağlamlığının qorunması tikinti təşkilatları qarşısında duran başlıca vəzifədir.

*Peşə bayramlarını qeyd edən muxtar respublika inşaatçıları bundan sonra da əzmlə çalışacaq, yaradıcı əməklərini müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının daha da inkişafına, müasirləşməsinə sərf edəcəklər.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat xidməti**



# “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının “Xəzərdən başlayan su səyahəti”nin Naxçıvan mərhələsi keçirilib




*İslam aləmində özünəməxsus mövqeyə malik Azərbaycanın mövcud potensialı və gerçəkləşdirdiyi genişmiqyaslı müasir infrastruktur layihələri idman oyunlarının sağlam rəqabət və dostluq şəraitində təşkili üçün əlverişli zəmin yaradır. Birinci Avropa Oyunlarından sonra ölkəmizdə növbəti, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların keçirilməsi isə həm də Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsidir. Bu yarışların ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda təşkil edilməsi idman şöhrətimizi artıracaq, beynəlxalq nüfuzumuzu daha da möhkəmləndirəcəkdir.*

Qeyd edək ki, 2013-cü ilin iyulunda Bakı İslam dünyasını birləşdirən idmanın çox növü üzrə möhtəşəm tədbir – “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarını qəbul edəcək şəhər elan olunub.

“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları çərçivəsində ölkəmizdə təşkil edilən “Xəzərdən başlayan su səyahəti”nin ilk dayanacağı aprelin 7-də Naxçıvan Muxtar Respublikası olub və “Xəzərdən başlayan su səyahəti”nin Naxçıvan mərhələsinə start verilib.

Naxçıvan Muxtar Respublikasında səyahətin ilk ünvanı Şahbuz rayonundakı Batabat gölü olub. Göl Naxçıvan şəhərindən şimal istiqamətində bir saatlıq məsafədə yerləşir. Çəmənliklərin əhatə etdiyi bu əsrarəngiz dağ gölü dumduru, saf suyu ilə tanınır. Göldəki üzən torf adacıqları yerini gündə iki-üç metr dəyişir.

Naxçıvan şahmatçısı Murad Əliyarov Batabat yaylağındakı Zorbulaqdan su götürüb. Onunla bərabər veteran cüdoçumuz, 2012-ci ildə keçirilən cüdo üzrə Avropa çempionatının bürünc mükafatçısı Orxan Quliyev və “Bakı-2015” I Avropa Oyunlarında boks üzrə bürünc mükafatını qazanmış Tayfur Əliyev tərəfindən göldən səhəngə su doldurulub. Qeyd edək ki, Murad Əliyarov Prezident İlham Əliyevin “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının “Xəzərdən başlayan su səyahəti”nə həsr olunmuş mərasimdə Xəzər dənizinin suyu ilə doldurulmuş səhəng hədiyyə etdiyi 15 uşaqdan biridir.

Batabat gölünə axan Naxçıvanın məşhur Zorbulağından su götürüldükdən sonra səyahət iştirakçıları Naxçıvan şəhərinə yollanıblar.

* * *



Aprelin 7-də “Domestic Grassroots” proqramı çərçivəsində Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində möhtəşəm bir layihə, “Sport joys – Regional idman tədbiri” həyata keçirilib.

Tədbirin açılış mərasimində çıxış edən “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları Komitəsinin əməkdaşı Ülviyyə Ələkbərova oyunlar barədə geniş məlumat verib. Naxçıvan güləş məktəbinin yetirməsi, İslam Həmrəyliyi Oyunlarının idmançı səfiri Hacı Əliyev çıxışında gənc idmançıları salamlayıb və onlara gələcək karyeralarında uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov isə çıxışında qonaqları muxtar respublikada aparılan idman siyasəti, keçirilən beynəlxalq və yerli yarışlar haqqında məlumatlandırıb.



“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının tanıtımı və gənclərin idmana cəlb olunması məqsədilə məktəblilər arasında təşkil olunan yarışda qaçış, uzağa tullanma, iplə tullanma və penalti üzrə 5 məktəbin 100 şagirdi iştirak edib. 50 qız və 50 oğlan şagirdin mübarizəsində qalib Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin komandası olub. Onlar təşkilatçılar tərəfindən kubok, diplom və “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə biletlər təqdim olunub.

Tədbir iştirakçılara əyləncəli və rəngarəng anlar yaşadıb.

* * *

Aprelin 7-də Naxçıvan şəhərinin mərkəzi meydanında su festivalı keçirilib.



Əvvəlcə “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı videoçarx nümayiş etdirilib.

Tədbirin aparıcısı qeyd edib ki, bu il mayın 12-dən 22-dək Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Mötəbər idman tədbirində 57 ölkəni təmsil edən 4 minə yaxın idmançı 20 idman növündə mübarizə aparacaqdır. “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının səyahəti su ünsürünə həsr olunub. Çünki İslam dinində su ünsürünə böyük önəm verilir. Eyni zamanda möhtəşəm idman tədbirinə ev sahibliyi edəcək Bakı şəhəri Xəzər dənizinin sahilində yerləşir. Aprelin 5-də “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının “Xəzərdən başlayan su səyahəti”nə start verilib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xəzərdən götürülmüş suyu özləri ilə aparmaq üçün ölkəmizin müxtəlif guşələrindən gəlmiş uşaqlara təqdim edib. Su səyahəti zamanı 3 min kilometrdən çox məsafə qət ediləcək və mayın 12-də Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ilə başa çatacaqdır. Həmin vaxt uşaqlar ölkənin göl və çaylarından, şəlalə və bulaqlarından topladıqları Azərbaycanın saf suları ilə idmançıları salamlayacaqlar.

Tədbirdə “Mirvari” rəqs qrupunun, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı olub, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının “Başlanğıc mərasimi”ndən hazırlanmış və Naxçıvanda keçirilən “Su mərasimi” barədə videoçarxlar nümayiş olunub, Xəzər dənizindən götürülmüş suyun Naxçıvan şəhərinə qədər keçdiyi səyahət yoluna nəzər salınıb.

Bildirilib ki, bu gün səhər saatlarında Naxçıvan təmsilçisi, şahmatçı Murad Əliyarov Şahbuz rayonunun Batabat yaylağındakı Zorbulaqdan mis səhəngi su ilə doldurub. Murad Əliyarovu Avropa Çempionatının bürünc mükafatçısı Orxan Quliyev və “Bakı-2015” I Avropa Oyunlarının boks üzrə bürünc mükafatçısı Tayfur Əliyev müşayiət ediblər. Gün ərzində IV İslam Həmrəyliyi Oyunlarının idman səfiri, güləş üzrə dünya və Avropa çempionu, olimpiya oyunlarının mükafatçısı Hacı Əliyevin iştirakı ilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məktəblilər arasında müxtəlif əyləncəli idman növləri üzrə yarışlar keçirilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təqdim etdiyi su səhəngini daşıyan naxçıvanlı şahmatçı Murad Əliyarov, eləcə də Şahbuz rayonunun Batabat yaylağındakı Zorbulaqdan götürülən suyu daşıyan idmançılar Orxan Quliyev və Tayfur Əliyev alqış sədaları altında səhnəyə dəvət olunublar.

Tədbir “Mirvari” rəqs qrupunun çıxışı, möhtəşəm lazer şousu və atəşfəşanlıqla başa çatıb.

✍ **Ceyhun MƏMMƏDOV**

# Sağlam ailə sağlam gələcəyimizin təminatıdır

***Muxtar respublikada gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması, eləcə də qadınların ailədə üzərinə düşən vəzifələrin düzgün yerinə yetirilməsi məqsədilə maarifləndirmə tədbirləri davam etdirilir. “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda növbəti tədbir Şərur rayonunun Arbatan Kənd Mərkəzində keçirilib. Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada qadınların sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır. Ailənin möhkəmləndirilməsi, qadın və uşaq problemlərinin həlli və hüquqlarının müdafiəsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə qəbul edilən “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı” uğurla icra olunur. Son illər muxtar respublikada böyük səhiyyə müəssisələri ilə yanaşı, onlarla feldşer-mama məntəqəsinin istifadəyə verilməsi, müasir tibbi avadanlıqlarla təchiz edilməsi qadınların sağlamlığının qorunmasına zəmin yaradıb, ana ölümü sayının minimuma endirilməsinə gətirib çıxarıb. Şərur rayonunun Arbatan kəndində yaşayan ailələr, qadınlar və uşaqlar da onların sağlamlığının qorunması istiqamətində dövlətimizin yaratdığı şərait və imkanlardan yararlanırlar.

Vurğulanıb ki, ailə münasibətlərini sağlam formada həyata keçirmək, düzgün məcrada saxlamaq şərtləri çox vacibdir. Bu şərtləri öyrənmək, onlara ailə həyatının pozulmaz qaydaları kimi əməl etmək zəruridir. Təsadüfi deyil ki, ailə möhkəmliyinin və səadətinin kökündə ailə münasibətlərinin düzgün qurulması və formalaşması dayanır. Ailə üzvlərinin hər biri milli-mənəvi dəyərlərin, ailə mədəniyyətinin, nəsillərarası münasibətlərin qorunub saxlanılması üçün öz üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Yeni nəslin ilk sosial mühiti ailəsidir və qazandığı ilk təcrübə və biliklər məhz anadan və ailənin digər üzvlərindən əxz etdikləridir. Ana övladlarını mövcud ictimai şəraitdə həyata hazırlamalı, ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün onlara zəruri olan bilik, bacarıq və vərdişləri mənimsətməlidir.



Cəmiyyətdə erkən nikah hallarının yolverilməzliyi və qanqohumluğu nikahları bağlanarkən müvafiq tibbi müayinədən keçmənin vacibliyini vurğulayan Ramilə Seyidova qeyd edib ki, lazımi tədbirlər görülmədikdə ailələrdə sağlamlıq imkanları məhdud uşaqlar doğulur. Komitənin apardığı təhlillərə görə muxtar respublikada 2024 sağlamlıq imkanları məhdud uşaqdan 464-ü Şərur rayonunda yaşayır. Bu da rayon üzrə uşaqların 1,13 faizini təşkil edir. Rayon üzrə 422 anadangəlmə sağlamlıq imkanları məhdud uşaqların 65-i uşaq serebral iflicinin qalığı, 57-si bud çıxığı, 27-si doğuş travmasının qalığı, 24-ü əqli zəiflik, 23-ü ürək qüsuru, 15-i lal-kar, 12-si daun, 20-si gözün və gözün əlavə aparatının xəstəliklərindən əziyyət çəkir. Rayonun Arbatan kəndi üzrə 1 anadangəlmə sağlamlıq imkanları məhdud uşaq vardır ki, bu da endokrin sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğunluqları (albunizm) xəstəsidir. Bütün bunlar onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflərin sağlam həyat tərzi yaşaması, nikaha daxil olarkən və sonrakı dövrdə qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları” mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Şərur rayonu üzrə anadangəlmə sağlamlıq imkanları məhdud uşaqlar arasında ən çox rast gəlinən xəstəliklərin – sinir sistemi xəstəlikləri, anadangəlmə anomaliyalar (inkişaf qüsurları), deformasiyalar, psixi və davranış pozğunluqları, perinatal dövrdə meydana çıxan xüsusi hallar, qan dövranı sistemi və sair xəstəliklərin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının suallarını cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## *“Trio”* konsert maraqla qarşılanıb



*Türkiyənin Qars-Qafqaz Universitetinin Dövlət Konservatoriyasının müəllimləri Ceyda Çınardal, Levent Çınardal və Eldar İbrahimoğlu Naxçıvan Dövlət Universitetində “Trio” konsert proqramı ilə çıxış ediblər.*

İfaçılar görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun, xarici klassiklərdən Hendelin, Haydnın, Kodallının və Rossinin məşhur əsərlərini səsləndiriblər. Tədbirdə həmçinin İncəsənət fakültəsinin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimovanın fortepiano ifasında Səid Rüstəmovun “Oxu tar” əsəri və tələbə Rüstəm Zeynalovun ifasında muğam səslənib.

Sonda konsert və ifalarla bağlı təəssüratlarını bölüşən rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov belə tədbirlərin Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasında mədəni əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyətli olduğunu bildirib. Rektor qeyd edib ki, universitetimiz dünya universitetləri ilə, həmçinin Türkiyənin bir sıra ali təhsil müəssisələri ilə müxtəlif sahələrdə uğurlu əməkdaşlıq edir və bu əlaqələr gündən-günə genişlənir, inkişaf edir. Konserti yüksək qiymətləndirən rektor eyni səpkidə musiqili tədbirin İncəsənət fakültəsi tələbələrinin iştirakı ilə Türkiyədə də keçiriləcəyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

**Telli MUSTAFAYEVA**

## *“Motsart və Salyeri”* xalq teatrının səhnəsində

***Ötən ilin sonlarında yaradılmasının 35 illiyini qeyd edən Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrının muxtar respublikamızda teatr sənətinin inkişafında və təbliğində özünəməxsus yeri vardır. Teatr müxtəlif məzmunlu və janrlı tamaşalarla rayon sakinlərinin estetik zövqünün formalaşmasında, gənclərin milli dəyərlər ruhunda tərbiyəsində, insanların asudə vaxtının mənalı və səmərəli təşkilində əhəmiyyətli rol oynayır.***

Xalq teatrının son illərdə hazırladığı “Qısqanc ər”, “Ac həriflər”, “Yuxu”, “Dələduz” və başqa tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bu günlərdə teatr Şərur Şəhər Mədəniyyət Sarayında böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin “Motsart və Salyeri” faciəsi əsasında hazırlanmış tamaşanı rayon ictimaiyyətinə təqdim edib.

“Motsart və Salyeri” əsəri dramatizmi və psixoloji gərginliyi ilə seçilir. İtalyan bəstəkarı Antonio Salyeri (1750-1825) və böyük Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (1756-1791) haqqında çoxlarına məlum olan rəvayət, bir sıra musiqi və bədii əsərlərin mövzusuna çevrilən hadisələr böyük şairin əsərində də əksini tapıb. Salyerinin Motsartı zəhərləməsi haqqında rəvayət bu əsərin əsas mövzusudur.

“Motsart və Salyeri” tamaşasının quruluşçu rejissoru Nəsimi Məmmədzadə həm də səhnə əsərinə bədii və musiqi tərtibatı verərək maraqlı tamaşa yaratmağa müvəffəq olub. Bu faciə ilk dəfə olaraq Azərbaycan səhnəsində tamaşaya qoyulur. Tamaşada əsas rollardan birinin ifaçısı da Nəsimi Məmmədzadədir. Salyeri kimi mürəkkəb və ziddiyyətli bir obraz Nəsimi Məmmədzadənin ifasında canlı və təbii görünür. Salyeri tanınmış və istedadlı bəstəkardır. Lakin paxıllıq, həsəd, şöhrətpərəstlik, eqoizm kimi sifətlər onun mənəvi kasıblığını ortaya qoyur. Əslində, böyük şairin də insanlara aşılamaq istədiyi əsas fikir bundan ibarətdir ki, bu mənfi əxlaqi sifətlər, bütövlükdə, cəmiyyət üçün təhlükəlidir.

Azərbaycan Respublikasının Əməkdar artisti Neymət Sultanov böyük bəstəkar Motsartın hərtərəfli istedadını və qeyri-adi taleyini tamaşaçıya təqdim etməyi bacarır. Salyeri sənətdə ondan istedadlı olan Motsartdan öyrənmək, onunla fəxr etmək əvəzinə Motsartı zəhərləyib öldürür.



“Motsart və Salyeri” tamaşasında rejissorun əlavə etdiyi Qara paltarlı adam (aktrisa İlkanə Cavadlı) rolu istisna olmaqla, əslində, iki obraz vardır: Motsart və Salyeri. Tamaşadakı kütləvi səhnələrdə Salman Şirəliyev, Sevinc Qasımova, İlham Quliyev, Gülnar Quliyeva iştirak edirlər.

“Motsart və Salyeri” kimi psixoloji faciənin xalq teatrında tamaşaya qoyulması kollektivin uğurudur. Onu da qeyd edək ki, bu dəhşətli ölüm rəvayətindən iki əsrdən çox keçsə də, mübahisələr, şayiələr bitmir. Ancaq reallıq budur ki, Motsart tarixdə istedadlı böyük bəstəkar kimi qalıb, Salyeri isə paxıllıq və eqoizm rəmzinə çevrilib.

Səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1518080 | 171594 | 172278 | 100,4 |
| 2. | Culfa rayonu | 1391457 | 154235 | 154813 | 100,4 |
| 3. | Şahbuz rayonu | 754060 | 88907 | 89208 | 100,3 |
| 4. | Babək rayonu | 3292823 | 344729 | 345291 | 100,2 |
| 5. | Kəngərli rayonu | 1176897 | 124384 | 124562 | 100,1 |
| 6. | Şərur rayonu | 2813788 | 304860 | 305179 | 100,1 |
| 7. | Sədərək rayonu | 336019 | 35440 | 35463 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 3072810 | 357994 | 358055 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5874527 | 1173939 | 1338663 | 114,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **20230461** | **2756082** | **2923512** | **106,1** |

## 2017-ci ilin aprel ayında rayon (şəhər) Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Heydərabad qəsəbə mərkəzi | 11.04.2017 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 12.04.2017 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər “Araz” kinoteatrının binası | 13.04.2017 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 14.04.2017 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 18.04.2017 | $11^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 19.04.2017 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 20.04.2017 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan “Gənclik” Mərkəzi | 21.04.2017 | $11^{00}$ |

***Məişətdə və istehsalatda baş verən yanğın hadisələrinin böyük əksəriyyəti elektrik qurğularının istisması, elektrik avadanlıqları və cihazlarının istifadəsi zamanı yanğın təhlükəsizliyi qaydalarına riayət edilməməsi səbəbindən baş verir. Artıq yüklənmə, qısaqapanma, izolyasiyanın pozulması, naqillərin müvafiq texniki qaydalara uyğun çəkilməməsi, montaj işlərindəki səhvlər və sair yanğınların baş verməsinə şərait yaradır. Məişətdə və istehsalatda elektrik qurğularının istisması, elektrik avadanlıqları və cihazlarının istifadəsi zamanı yanğın təhlükəsindən uzaq olmaq üçün bir sıra qaydalara əməl olunması vacibdir.***

## Elektrik cihazları və qurğularının istismarı zamanı yanğın təhlükəsizliyinə riayət edilməlidir

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq elektrik cihazları və elektrik təsərrüfatı ilə bağlı yanğın təhlükəsizliyi qaydalarına istehlakçılar, idarə, müəssisə, təşkilat rəhbərləri və vətəndaşlarımız tərəfindən əməl olunmasını tövsiyə edir.

Qeyd etmək lazımdır ki, bütün elektrik qurğularının quraşdırılması və onun istehlakçılar tərəfindən istismarı müvafiq qayda və normativ sənədlərə, təlimatlara uyğun həyata keçirilməlidir.

Elektrik mühərrikləri, idarəetmə aparatları, nəzarət-ölçü cihazları və mühafizə aparatları, köməkçi qurğular və elektrik ötürücüləri (kabelləri, naqilləri) müvafiq qaydaların tələblərinə uyğun olaraq seçilib quraşdırılmalı, eləcə də artıq yüklənmədən və qısaqapanmadan mühafizə edilməsi üçün qoruyucu aparatlarla təmin edilməlidirlər. İşin sonunda təyinatından asılı olmayaraq, nəzarət edilməyən bütün otaqlarda elektrik qurğuları və cihazları növbətçi işçilər tərəfindən dövriyyədən ayrılmalıdır.

Elektrik qurğularının istismarı zamanı elektrik aparatlarının və cihazlarının onu hazırlayan müəssisənin tövsiyələrinə (təlimatlarına) uyğun olmayan şəraitdə və ya yanğına səbəb ola bilən nasazlığı varsa, belə aparat və cihazlardan istifadə etmək olmaz. Eləcə də izolyasiyası zədələnmiş və ya sıradan çıxmış naqillərdən, kabellərdən, həmçinin nasaz elektrik qurğularından istifadə etmək qadağandır. Elektrik lampasını və işıqlandırıcısını kağıza, parçaya və digər yanar materiallara bükmək, eləcə də ondan mühafizə qapağı – örtük (plafonu) çıxarıldıqda istifadə etmək yanğına səbəb ola bilər. Yadda saxlamaq lazımdır ki, müəssisələrdə və yaşayış evlərində bir elektrik uzadıcısına eyni vaxtda bir neçə elektrik cihazı qoşmaq düzgün deyil. Çünki həmin uzadıcı artıq yüklənmənin təsirindən tez əriyərək qısaqapanmaya və yanğının baş verməsinə səbəb ola bilər.

Dayağı yanmayan materiallardan olmayan elektrik ütülərindən, elektrik çaydanlarından və digər elektrik qızdırıcı cihazlardan istifadə etmək də yanğın təhlükəsi yarada bilər. Standartlara uyğun olmayan elektrik qızdırıcı cihazlarından istifadə olunması, magistral kabel xətlərinin və elektrik naqillərinin anbar otaqlarından, yanğın təhlükəli və yanğın partlayış təhlükəli zonalardan birbaşa çəkilməsi, elektrik qızdırıcı cihazlarının, televizorların, radioqəbuledicilərin və sair qurğuların şəbəkəyə qoşulu halda nəzarətsiz qoyulması, yaşayış evlərində nasaz və qeyri-standart elektrik qızdırıcılarından və cihazlarından istifadə etmək qəti qadağandır. Məişətdə mövcud olan elektrik cihazları və avadanlıqlarının istifadəsini azyaşlı uşaqlara həvalə edib evi tərk etmək olmaz. Mobil telefonların və digər elektrik cihazlarının qidalandırıcı adapterlərinin uzun müddət cərəyanda qoşulu halda saxlanılması yanğınlara səbəb ola bilər. Yaşayış evlərinin çardaq hissəsindən elektrik xətlərinin çəkilişi yanğın təhlükəsizliyi baxımından yolverilməzdir. Çünki uzun müddət Günəş şüalarının və temperaturun təsirindən naqillərin izolyasiya təbəqəsi sıradan çıxaraq qısaqapanmaya və yanğınlara gətirib çıxarır.

Elektrik qurğularının istismarı, elektrik avadanlıqları və cihazlarının istifadəsi zamanı yanğınların, əsasən, qısaqapanmalardan baş verməsini xüsusilə vurğulamaq lazımdır. Qısaqapanmalar izolyasiyası olmayan və ya zədələnmiş halda olan iki müxtəlif yüklü elektrik naqilinin bir-biri ilə birləşdiyi zaman baş verir. Qısaqapanmalar zamanı naqillər bir anda o dərəcədə qızırlar ki, metal damarlar əriyir, bol qığılcım və istilik əmələ gəlir. Əgər qısaqapanma yerində yanacaq materialları və ya yana bilən konstruksiyalar olsa, onlar dərhal alışarlar. Elə buna görə də naqillərin izolyasiyasının sazlığına daim nəzarət edilməlidir. Bununla yanaşı, elektrik şəbəkəsinə enerji işlədən müxtəlif cihazları qoşmaqla onları artıq yükləmək olmaz. Elektrik şəbəkəsində həddən artıq yüklənmə olduqda naqillərdə ayrılan istiliyin miqdarı artır. Bu zaman o naqillərin izolyasiyasını qızdıraraq alışdırır. Bu isə yanğınlara səbəb olur.

Elektrik naqillərinin üzərinə divar kağızı yapışdırmaq da təhlükəlidir. Elektrik naqillərinin telefon və radio naqillərinə, radio və televiziya antenalarına, dam örtüklərinə toxunmasına yol vermək olmaz. Telefon və radio naqillərindən cərəyankeçirici kimi istifadə etmək qadağandır. Naqillər bir-biri ilə birləşdiyi yerdə və eləcə də onların cərəyan qəbuledicilərə birləşdirildiyi yerlərdə kontaktlar zəif olduqda həddindən artıq qızma əmələ gəlir.

Toxunulan məsələ ilə bağlı əhali bir daha diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **“112”** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **“101”** xidmətinə məlumat verməlidir.

Evdən çıxarkən məişət elektrik cihazlarına, qurğularına və avadanlıqlarına nəzarət edin, onları söndürməyi unutmayın.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

### *İtmişdir*

Naxçıvan şəhəri, Xətai məhəlləsi 27/13B ünvanında yaşayan Heydərova Zinyət Məhəmməd qızının adına olan AA-002024 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 288